LAWELS

# APREL AYINDA QANUNVERİCİLİYƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

*Cari buraxılış –XII, 03 may, 2021-ci il*

*LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.*



**1. Azərbaycan Respublikasının Prezidenti qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" 2007-ci il 13 dekabr tarixli Fərmanının ləğv edilməsi barədə Fərman imzaladı.**

Fərmana əsasən, Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının əsasında "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxsi yaradılmış və Nizamnaməsi təsdiq edilmişdir. Agentliyin nizamnaməsinə əsasən, o, qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi və s. sahələrdə fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Qeyd edək ki, rəhbərlik və nəzarət fəaliyyətinin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 11 üzvdən ibarət Müşahidə Şurasının səlahiyyətinə verilmişdir. Müşahidə Şurası isə 8 üzv qeyri-hökumət təşkilatlarından, digər 3 üzv isə dövlət orqanlarının nümayəndələrindən ibarətdir.

Eyni zamanda, Nizamnamədə Agentliyin fəaliyyət istiqamətləri, daxili strukturu, hüquq və vəzifələri və bir sıra digər məsələlər öz əksini tapmışdır.

Daha ətraflı burada tanış ola bilərsiniz.

**2. Azərbaycan Respublikası Prezidenti "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Fərman imzaladı.**

17 aprel 2021-ci il tarixi Fərman Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədini daşıyır.

Fərmanla müəyyən edilmişdir ki, kritik informasiya infrastrukturunun (mühafizə olunan şəxslərin və qorunan obyektlərin informasiya infrastrukturu istisna olmaqla) təhlükəsizliyinin təmin edilməsi, o cümlədən kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli orqanın funksiyalarını Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, dövlət orqanlarına, dövlətə məxsus olan hüquqi şəxslərə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərə münasibətdə həmin funksiyaları Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə həyata keçirir.

Eyni zamanda, Fərmana əsasən, Nazirlər Kabineti müvafiq normativ hüquqi aktların layihələrini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təklifləri əsasında üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Daha ətraflı burada tanış ola bilərsiniz.

**3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edildi.**

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə əsas etibarilə aşağıdakılar daxildir:

- Məcəllənin 122.1-ci, 124.5-ci və ya 124.6-cı maddələrində nəzərdə tutulan, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilən inzibati xəta haqqında iş üzrə qərarın rəsmi qaydada verilmiş hesab olunduğu hallar müəyyənləşdirildi.

- Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlərə də Məcəllənin 16-cı fəsli ilə müəyyən edilən qaydalara uyğun baxılması ilə bağlı müvafiq dəyişikliklər edilmiş və Məcəllədəki müvafiq normalar buna uyğunlaşdırılmışdır.

- Sürücülər üçün sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və digər sənədlərin daşınması tələbi aradan qaldırılmışdır. Şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququ və onun avtomobilə sahiblik hüququnun olması Dövlət Yol Polisi əməkdaşları tərəfindən bort-kompüterlər vasitəsilə yoxlanılır.

- Avtomobil yollarında baş verən kiçik yol-nəqliyyat hadisələrinə görə nəqliyyat axınının hərəkətini məhdudlaşdırmamaq və icraatı sadələşdirmək üçün Məcəlləyə dəyişiklik edilmişdir. Belə ki, yol-nəqliyyat hadisəsinin baş verməsində təqsirli olan şəxsin müəyyən edilməsi üzrə tərəflər arasında mübahisə olmadığı və həmin yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığa zərər dəymədiyi halda sürücü hadisə yerini tərk etməsinə görə inzibati məsuliyyətə cəlb edilmir.

- Dəyişikliklə avtoxuliqanlıq xətasının törədilmə üsulları dəqiq müəyyən edilmişdir. Sürücü aşağıdakı əməlləri törətdikdə avtoxuliqanlıq etmiş sayılır:
  - aşkar surətdə iki və ya daha artıq mexaniki nəqliyyat vasitəsinin iştirakı ilə sürət yarışı həyata keçirdikdə;
  - mexaniki nəqliyyat vasitəsinin bir və ya daha çox təkərinin yolun səthindən qaldırmaqla idarə edilməsinə görə;
  - mexaniki nəqliyyat vasitəsini qəflətən sürətləndirməklə davamlı olaraq təkərlərin yolun səthi ilə sürtünməsi səslərinin çıxarılmasına və ya yolun səthində çoxsaylı təkər izlərinin buraxılmasına görə.
- Müvafiq dəyişikliklərlə müəyyən edilmişdir ki, əgər inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 5 il müddətində icra edilməmişdirsə, daha icra edilmir.

Daha ətraflı burada tanış ola bilərsiniz.

**4. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişiklik edildi.**

Ailə Məcəlləsinin 12.0.1-ci maddəsində və Mülki Prosessual Məcəlləsinin 19-cu maddəsində yaxın qohumlar dedikdə valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar nəzərdə tutulmuşdur. Odur ki, valideynlərin bacıları (bibi və xala), qardaşları (əmi, dayı), onların övladları yaxın qohum anlayışı ilə əhatə olunmadığından, Ailə Məcəlləsinin müvafiq maddələrində “yaxın qohum” ifadəsi “qohum” ifadəsi ilə əvəz olunmuşdur.

Digər mühüm dəyişiklik isə, valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə razılığın verilməsi ilə bağlı məsələlərin praktiki baxımdan dəqiqləşdirilməsidir. Edilən dəyişikliyə əsasən himayədar ailənin öhdəsində olan uşaqların övladlığa götürülməsi zamanı himayədar valideynlərin fikri öyrəniləcək (bundan əvvəlki redaksiyada isə yazılı razılığı tələb olunurdu), sosial xidmət müəssisələrində yerləşdirilmiş uşaqların övladlığa götürülməsi zamanı isə həmin müəssisənin rəhbərinin rəyi alınacaqdır (bundan əvvəlki redaksiyada isə fikri öyrənilməli idi).

Bundan başqa, dəyişikliklərə görə, övladlığa götürmənin və övladlığa götürmənin ləğv olunmasının hüquqi nəticələri ilə bağlı olaraq 10 yaşı tamam olmuş uşağın adının və soyadının onun öz razılığı ilə dəyişdirilə bilməsi ilə bağlı maddə ləğv olunmuşdur.

Daha ətraflı burada tanış ola bilərsiniz.

**5. Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında Fərman imzaladı.**

6 aprel 2021-ci il tarixli Fərmanla Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi" yaradılmışdır.

Fərmana əsasən, "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi" publik hüquqi şəxsdir və mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə həvalə edilmişdir.

Qeyd edək ki, Nazirlər Kabineti bir ay müddətində Mərkəzin fəaliyyətinin təmin edilməsi məqsədilə Mərkəzin maddi-texniki təminatı məsələlərinin həlli üçün tədbirlər görməli, Mərkəzin strukturunu və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla nizamnaməsini təsdiq etməlidir.

Daha ətraflı burada tanış ola bilərsiniz.